# NIZAMI

## Bəhramьn ova getməsi və əƶdəhanь əldyrməsi

Birgyn carhovuza təkdyrərək mej,
Atlanьb gəmijə şah gəzirdi, hej
Cəkirdi başьna şirin ajaqь. [1])
Birdən, ovlax dejə tərk etdi baqь,
Cəldə ox ataraq, kəmənd acaraq,
Gura, gor qazьjьb hynər sacaraq,
Vəlvələ qopardь, qovhaqov saldь,
Hər addьm başьnda vurub ov
saldь.

Nəhajət gələrək bir dişi çejran,
Şurilə dynjanь elədi byrjan.
Bu bir çanlar alan gozəl qazaldь,
Vyçudu ruhani, bir xoş xəjaldь.
Şymşysy parlaxdь, arxasь zərdi,
Qarnь elə bil ki, şirin şəkərdi.
Başdan-ajaqa tək myşki rəng idi,
Gozəldi, xallarь həmahəng idi.
Seçilməzdi halь nazlь mələkdən,
Uzvndə jaşmaqь gylgyn ipəkdən,
Baldьrь bir ijid oxuna bənzər.
Qulaxlarь jalьn almas bir xənçər,
Gərdəni geçəki əzabdan azad,
Sьrqalьxdan uzax pejsəri symşad
Qacьşь jel kimi, ruzgar gedişli,
Şaqrьşь kos alan şimşək jerişli.
Atəşlə qohumdu, elə bir aldь,
Gejimi cox sadə bir mahçamaldь.
Gymyşy rəngində kimxadan qara
Tykləri vardь ki, insan bir ara
Bojnuna baxdьqca mat qalьr, həmən
Bojnu mirvaridən, bejry əqiqdən
Elə bil hər zaman şikajətkardь.
Tej xəmir kimi ət bədəni vardь.
Parlaxdь, bərraxdь zymrydi rəngi,
Elə bil hiləkar zəngidir-zəngi.
Qujruqu belindən ajrьlmazdь hec,
Bojnilə cox jaman kəsilmişdi ləç.
Gəryncə Bəhramь kyləjə dəndy.
Bəhram arxasьnca şimşəjə dəndy,
Gətyrdy gur[2]) jaman qoparaq getdi,
Bəhram şirə dəndy, caparaq getdi,
Qaş qaraldь jenə çejran qacьrdь,
Bəhram da at capьb hər an qa-
cьrdь.

Jorulmaq bilməzdi ijid qəhrəman
Məjər əl gətyrər ovcu ovundan?
Çejran hej qacьrdь, Bəhram qo-
vurdu.

Capьrdь padişah, mydam qovurdu.
Dərələr kecdilər, daqlar aşdьlar,
Gəlib bir kahaja jaxьnlaşdьlar.
Elə bir kaha ki, janь jancaqь
Ømryndə gərməjib insan ajaqь.
Ovcu catan kimi əz şikarьna
Gəz jetirib həmən rəhgyzarьna,
Baxdь qabaqьnda bir əzdər jatьr,
Ovuna myntəzir şiri-nər jatьr
Şah baxьb jolunda duran xətərə.
Gəryb əzdəhanь dəndy əzdərə,
Çejran qismətini unutdu dərhal,
Əl qojub buduna ejlədi xəjal
Təəççyblə dedi: bu nə şikardьr?
Bura gəlməjimin səbəbi vardьr.
Cox jəqin ki, maral amana gəlmiş,
Əzdəha zylmyndən çəzana gəlmiş,
Mənim dərgahьma pənah gətirib.
Intiqam almaqa o şah gətirib.
Nə fərqi ja maral, ja əzdər olsun
Ər gərək hər zaman qocax ər olsun.
Qajьtsam kim sanar şiri-nər məni
Maral xəçalətі əldyrər məni.
Dejib intiqama verdi şah kənyl
(Sənsən havadarь onun ah kənyl)
Jatan əzdəhaja baxьb daldь şah,
Acьlь qajcь tək bir ox aldь şah,
Kirişi aq olan kamana qojdu,
Qojdu şah qəhrəman amma nə
qojdu.
Şah cəkdi bir nə'rə, aman ojandь
Ojandь əzdəha, jaman ojandь.
Şah qəflət etməjib oxunu atdь,
Haca ox əzdərin gəzynə batdь
Əzdər gərməmişdi qanlь şah kimi,
Atьldь ystynə, şah timsah kimi
Əzdərin aqzьna birçə gyrz vurdu.
Endirib zərbəni durdu, nə durdu.
Altьpərli o gyrz jatan əzdərin
Jer etdi aqzьnda dərindən-dərin
Səslənib aqrьdan o cəkdi nə'rə,
Dəjdi sytun kimi ansьzьn jerə
Şah bu hadisədən qorxmadь, sybut?
Xof edərmi təbil səsindən bulut.
Kəsdi əhrimənin başьnь xənçər
Insana dyşməni əzmək dad verər.
O tez əzdəhanьn qarnьnь jardь,
Orada bir maral balasь vardь.
Şah dənmək istədi at minib geri.
Gəzləjirdi onu sərkərdələri.
Şahь gedən gəryb, yrəji kəvrək
Çejran maqaraja girdi sinərək.
Şah tutmaq istədi gəzəl çejranь,
Zorla maqaraja girdi jan-janь,
Birdən xəzinə tək kəsildi bərraq
Cəhrəsi nur kimi parьldajaraq
Çejran ovcusunu qəmgin gərvnçə,
Cьxdь sərdəbadan baxdь gizliçə.
Bir xəznə acarь tapdь həkmydar,
Əzdəhanь evdən eləjib kənar
Bələdci axtardь, o gəzə-gəzə,
Cьxdь haman saat bir ajdьn dyzə.
Şahьb burda qojaq, coxdan bəridir
Onu sərkərdələr dərbədər edir.
Gəzib həkmydarь tapьb durdular.
Səf cəkib ənyndə alaj vurdular.
Onlarь gəryncə şah verdi fərman:
«Girsin maqaraja beş-on qəhrəman»
Şahьn fərmanьna əməl edildi.
Ycjyz çavan dəvə tez jykləđildi.
Bəhram qənimətі çavahiratla,
Dəndylər gerijə əzgə bysatla.
Bir qarьnca edər əzdəri dustaq
Şah dənyr çejrana əsir olaraq.
Cəkdiji əməjin barьdьr əlbət,
Həm bu çavahirat, həm belə
hərmət.
Gəlib Xyvərnəqə, sən imarətə
Şah jenə başladь ejşi-işrətə.

**Cevirəni: M. RAHIM**

[1]) Pijalə.
[2]) Maral